# Herbalife

## Premyer Liqa

Mart 2024

© 2024 Herbalife. All rights reserved.

# "Herbalife Premyer Liqası" promouşenin şərtləri

## "Herbalife Premyer Liqası" promouşenində kim iştirak edə bilər?

Marketinq Planının cari səviyyəsindən asılı olmayaraq, Promouşen Herbalife-ın BÜTÜN Müstəqil Tərəfdaşları üçün açıqdır

## Nə etmək lazımdır?

1. Herbalife Premyer Liqasının sıralarına qoşulmaq üçün ciddi qərar qəbul edin və "İŞTİRAK EDİRƏM" düyməsini sıxaraq, myHerbalife.com saytında öz razılığınızı təsdiq edin




2. Təşkilatınızı inkişaf etdirin!

- Sizin ilk nəslinizdə **10 yeni Müstəqil Tərəfdaş** Müqaviləni imzalamalı və ya 2024-cü il ərzində Müstəqil Tərəfdaş statusuna keçməlidir. Onların hər biri Müqavilənin imzalandığı ay və onun ardınca gələn ay ərzində ümumilikdə **250+ Həcm Balı toplamalıdır***.
- Sizin ilk nəslinizdə **2 yeni Supervayzer** 2024-cü il ərzində Supervayzer statusuna ixtisaslaşmalıdır.



*250 Həcm Balı (VP) şəxsən əldə edilmiş Həcmin (PPV) yeni Müstəqil Tərəfdaşın şəxsən qeydiyyatdan keçirdiyi İmtiyazlı Müştərilərin Həcmi (Mənim İmtiyazlı Müştərimin Həcmi – MPCV) ilə istənilən kombinasiyanı ifadə edə bilər. (ABŞ üçün və ABŞ əraziləri üçün 250 VP Həcmlə sənədləşdirilməlidir. Sağlam həyat tərzi Klubunda istifadədən sənədləşdirilmiş Həcm nəzərə alınmır.)

# Hədiyyələr və mükafatlar

**Eksklüziv olaraq Herbalife Premyer Liqasının iştirakçıları üçün**

- Herbalife Premyer Liqasının 6 unikal tikməsindən ibarət dəst
- Xüsusi hədiyyə dəsti







- Erik Uorri ilə liderliyin inkişafı ilə bağlı təlim seriyasına eksklüziv giriş hüququ (10 000 ABŞ dollarından yuxarı dəyərdə)
- Erik Uorri ilə qrup çatına giriş icazəsi

Regional Ekstravaganzaya iki pulsuz bilet

Korporativ təbirlərdə VİP qeydiyyat və VİP zona

Tədbirlərdə və digər fəaliyyətlərdə xüsusi tanınma səviyyəsi



*Hədiyyələrin təsviri əslindən fərqlənə bilər.

# Herbalife Premyer Liqasının iştirakçıları üçün eksklüziv təlim seriyası



Proqram iştirakçıları Erik Uorri ilə Liderliyin inkişafı ilə təlim seriyasına eksklüziv giriş hüququnu (10 000 ABŞ dollarından çox məbləğdə), eləcə də Erik Uorri ilə qrup çatına qoşulma hüququnu əldə edirlər

## Erik Uorri haqqında

Erik Uorri, birbaşa satış biznesi ilə bağlı olan uğurlu karyerası ərzində 60-dan çox ölkədə 500 000-dın çox distribütoru olan təşkilatlar qurmuşdur. 2009-cu ildə birbaşa satış biznesinin onun həyatına gətirdiklərindən ilham alan Erik, liderlərdən birinin statusunda olmaqla, distribütorluq fəaliyyətini dayandırmaq qərarına gəldi. Bu gün o, yalnız ən çox tələb olunan natiq deyil, eyni zamanda birbaşa satışlar dünyasında ən çox güvənilən və tələb olunan təlimçidir. Erik milyonlarla nüsxəsi satılmış və bir çox dillərə tərcümə olunmuş "Peşəkar ol: şəbəkə marketinqində peşəkar olmaq üçün 7 addım" beynəlxalq bestseller kitabının müəllifidir. O birbaşa satış cəmiyyəti üçün ən uğurlu və təsirli təlim və tədbirlərin bəzilərini keçirir.

Herbalife
PREMIER
LEAGUE

# İxtisaslaşmaya bu gün başlayın və iki dəfə çox hədiyyə qazanın!

<table>
<tr><td>YANVAR</td><td>FEVRAL</td><td>MART</td><td>APREL</td><td>MAY</td><td>İYUN</td><td>İYUL</td><td>AVQUST</td><td>SENTYABR</td><td>OKTYABR</td><td>NOYABR</td><td>DEKABR</td><td rowspan="2">2025</td></tr>
<tr><td colspan="12">2024</td></tr>
<tr><td colspan="9">İxtisaslaşmanın yerinə yetirilməsi<br>(10 MT + 2 Supervayzer)</td><td colspan="3">2024-cü il ərzində hədiyyələr və tanınma</td><td>2025-ci il ərzində hədiyyələr və tanınma</td></tr>
<tr><td colspan="12">İxtisaslaşmanın yerinə yetirilməsi<br>(10 MT + 2 Supervayzer)</td><td>2025-ci il ərzində hədiyyələr və tanınma</td></tr>
</table>

## İxtisaslaşmanı nə qədər tez bitirərsəniz, daha çox* hədiyyə alacaqsınız!

*Gözlənilməz dəyişikliklər baş verdiyi halda Şirkət promouşenin şərtlərini və mükafatlandırma qaydasını dəyişdirmək hüququnu özündə saxlayır.
İxtisaslaşmaya təsir göstərən Müstəqil Tərəfdaşda və ya aşağı xətt təşkilatda aşkar edilmiş Herbalife Müstəqil Tərəfdaşlarının Davranış Qaydalarındakı uyğunsuzluqlarla bağlı olaraq ixtisaslaşma ləğv edilə və ya ona yenidən baxıla bilər. Müstəqil Tərəfdaşlar onların Promouşenlərlə bağlı aldıqları ödəniş və hədiyyələrdən hər hansı vergilərin ödənilməsinə görə fərdi məsuliyyət daşıyırlar (Müstəqil Tərəfdaşın Davranış Qaydalarında, qayda 8G).

# Suallar və cavablar

- **Aşağı xətt Müstəqil Tərəfdaşların ixtisaslaşmasının ətraflı şərtləri hansılardır?**

Yeni Müstəqil Tərəfdaş

- 10 yeni Müstəqil Tərəfdaş 2024-cü ildə şəxsən tərəfinizdən (birinci nəsildə) imzalanmalıdır.
- Dekabr 2023-cü il və yanvar 2025-ci il nəzərə alınmayacaq.
- Müstəqil Tərəfdaş statusuna keçmiş İmtiyazlı Müştəri o şərtlə nəzərə alına bilər ki, 2024-cü ildə İmtiyazlı Müştəri statusuna keçmiş, sonra isə geriyə dəyişmiş Müstəqil Tərəfdaş olmasın.
- 2024-cü ildə geri qayıtmış və 250 Həcm Balı toplamış istənilən Müstəqil Tərəfdaş nəzərə alınacaq.
- Müqavilənin imzalandığı ay və sonrakı ay ərzində 250 Bal toplanmalıdır. Məsələn, əgər yeni MT Müqaviləni 15 apreldə imzalayıbsa, 250 Bal ümumilikdə 2024-cü ilin 15 aprelindən 31 mayınadək olan dövr ərzində toplanmalıdır.
- 250 Həcm Balı (VP) şəxsən əldə edilmiş Həcmin (PPV) yeni Müstəqil Tərəfdaşın şəxsən qeydiyyatdan keçirdiyi İmtiyazlı Müştərilərin Həcmi (Mənim İmtiyazlı Müştərimin Həcmi – MPCV) ilə istənilən kombinasiyanı ifadə edə bilər. (ABŞ üçün və ABŞ əraziləri üçün 250 VP Həcmlə sənədləşdirilməlidir. Sağlam həyat tərzi Klubunda istifadədən sənədləşdirilmiş Həcm nəzərə alınmır.)

Yeni Supervayzer

- İki (2) Yeni Supervayzer birinci xətdə olmalı və 1 fevral 2024-cü ildən 1 yanvar 2025-ci ilədək ixtisaslaşma tarixinə malik olmalıdır.
- İki (2) Yeni Supervayzer 10 Yeni Müstəqil Tərəfdaşdan biri olmamalıdır. Sizin birinci nəslinizdə Supervayzerə ixtisaslaşmış istənilən mövcud Müstəqil Tərəfdaş nəzərə alınacaq.
- Təkrar ixtisaslaşmanın şərtlərini yerinə yetirməmiş və 2024-cü ildə yenidən ixtisaslaşmış Supervayzer nəzərə alınacaq.

# Suallar və cavablar

- **Əgər Müstəqil Tərəfdaş Müqaviləni 2024-cü ilin yanvarında və ya fevralında imzalayıbsa, o 2024-cü ilin martında və aprelində 250 Həcm Balı toplaya bilər?**

  Bəli, MT, 2024-cü ilin yanvarında və fevralında Müqavilənin imzalanması tarixi ilə, Müqavilənin imzalandığı tarixdən 30 aprel 2024-cü lədək ümumilikdə 250 PPV toplaya bilər

- **Əgər Müstəqil Tərəfdaş Müqaviləni ikiqat ayın günündə imzalayıbsa və əvvəlki ay üçün sifariş yerləşdiribsə, bu nəzərə alınacaqmı?**

  Xeyr. Məsələn, əgər MT Müqaviləni 1 apreldə imzalayıbsa və mart ayı üçün 250 Həcm Balı yerləşdiribsə, onlar promouşendə nəzərə alınmayacaq.

- **Əgər Müstəqil Tərəfdaş 250 Həcm Balı yerləşdirdikdən sonra İM-ə konversiya olunubsa, bu nəzərə alınacaqmı?**

  Bəli.

- **Mənim Aşağı xətt Tərəfdaşlarım hansı ölkələrdən ola bilər?**

  Herbalife şirkətinin rəsmi qaydada təqdim edildiyi istənilən ölkədən ola bilər.

- **Müstəqil Tərəfdaş geri qaytarılma aksiyası üzrə bərpadan sonra yeni Müstəqil Tərəfdaş hesab oluna bilərmi?**

  Bəli, əgər MT 2024-cü ildə bərpa olunubsa və bərpadan sonrakı ilk 2 ay ərzində 250 PPV toplayıbsa, bu nəzərə alınacaq.

- **Başlanğıcda təkrar ixtisaslaşmadan keçməyən, lakin sonradan təkrar ixtisaslaşmış və statusunu bərpa etmiş Supervayzer nəzərə alınacaq?**

  Bəli, əgər bu MT 2024-cü il ərzində Supervayzer statusuna ixtisaslaşırsa.

- **Mənim yeni Supervayzerimin birinci nəslində yaranmış yeni Supervayzer nəzərə alınacaqmı?**

  Xeyr, hər iki Supervayzer sizin birinci nəslinizdə yaranmalıdır.

# Suallar və cavablar

- **Əgər mənim aşağı xətt Müstəqil Tərəfdaşlarım Herbalife ilə əməkdaşlığına 2024-cü ildə son qoyarsa, bu mənim promouşendə ixtisaslaşmama təsir göstərəcəkmi?**

  Xeyr, ixtisaslaşmanız dəyişməyəcək.

- **Əgər yeni Supervayzer ikinci nəsildən mənim yanıma keçərsə, bu nəzərə alınacaqmı?**

  Xeyr. Yeni Supervayzerlər mütləq əvvəlcədən sizin birinci nəslinizdə olmalıdır.

- **Promouşenə ixtisaslaşmaya necə başlamalı?**

  İştirak etmək üçün siz, MyHerbalife.com saytında "İştirak edirəm" düyməsini sıxaraq, iştirakınızı mütləq təsdiq etməlisiniz. Düyməni sıxdıqdan sonra əlavə təsdiq nəzərdə tutulmamışdır. Siz 2024-cü ildə istənilən vaxt: promouşenin digər tələblərini yerinə yetirməzdən əvvəl və ya sonra düyməni sıxa bilərsiniz. Məsələn, əgər sizin yeni MT və Supervayzerləriniz 2024-cü ilin iyununadək yaranarsa, "İştirak edirəm" düyməsini isə 2024-cü ilin noyabrında sıxarsanız, ixtisaslaşmanız 2024-cü ilin noyabrında nəzərə alınacaq.

- **Promouşen üçün ixtisaslaşmanın yerinə yetirilməsinin təsdiqini necə alacam?**

  Siz irəliləməni MyHerbalife.com saytında promo-trekerdə özünüz təqib edə bilərsiniz. Bundan əlavə, siz e-mail vasitəsilə təbrik məktubu alacaqsınız.

- **Ekstravaganza 2024 və 2025-ə pulsuz bilet əldə etmək üçün promouşenə ixtisaslaşmanı nə vaxt başa çatdırmalıyam?**

  2024-cü ilin avqust ayınadək (1 sentyabr 2024-cü ildən gec olmayaraq yeni Supervayzerlərə statusun verilmə tarixi) daxil olmaqla promouşenin bütün şərtlərini yerinə yetirdiyiniz halda, regional Ekstravaganzaya 4 pulsuz bilet əldə edəcəksiniz: 2 bilet 2024-cü ilin tədbirinə və 2 bilet 2025-ci ilin tədbirinə. Bundan əlavə, 2024-cü ilin qalığının və bütövlüklə 2025-ci ilin digər mükafatları sizin üçün əlçatan olacaq.

- **Kim mənimlə birlikdə ikinci biletlə Ekstravaganza-ya gedə bilər?**

  Biletlər Müqavilə sahibi və onun arvadı/əri və ya həyat yoldaşı və ya biznes assistenti üçün nəzərdə tutulmuşdur.

# Suallar və cavablar

- **Pulsuz biletlərlə getmək istədiyim Ekstravaganzanı seçə bilərəm?**

Siz istənilən bölgənin tədbirini seçə bilərsiniz, lakin bütün pulsuz biletlər yalnız orada istifadə olunmalı, sizin promouşenə ixtisaslaşmanız isə tədbirə 1 ay qalmış tam başa çatmalıdır.

- **Pulsuz biletləri necə əldə edə bilərəm?**

Siz tədbir üçün tam ixtisaslaşmalı və biletləri özünüz əldə etməlisiniz. Promouşenə ixtisaslaşma yerinə yetirildikdən sonra Şirkət sizin bilet xərclərinizin əvəzini ödəyəcək.

- **Əgər mən Ekstravaganzaya gedə bilməzsəm, biletləri gələcək üçün saxlaya və ya onları digər MT-yə verə bilərəm?**

Xeyr, biletləri başqasına vermək və ya sonra istifadə etmək olmaz

- **Tikmə nişan dəstini və xüsusi hədiyyə dəstini nə vaxt və necə ala bilərəm?**

Sonra məlumat veriləcək, Şirkətin yeniliklərini izləyin.

- **Erik Uorii ilə təlimə qoşulmaq üçün keçidi necə öyrənə bilərəm?**

Hər bir zənglə bağlı məlumat Şirkətdən daxil olur. Yenilikləri telegram- çatlarda və poçt vasitəsilə təqib edin.

- **Erik Uorii ilə təlimdə iştirak üçün öz Təşkilatımı dəvət edə bilərəm?**

Təlim seriyasında bütün Müstəqil Tərəfdaşlar üçün açıq tədbirlər var. Siz onlara öz Təşkilatınızı dəvət edə bilərsiniz.

Herbalife

# Premyer Liqa

Mart 2024

© 2024 Herbalife. All rights reserved.